

# DÜNYANI DOLAŞAN MUSİQİ

*Bəzən bu və ya digər sənətkarın əsərlərini təhlil edərkən bir fikir üzərində qəti dayanırıq: "Onun şah əsəri filan opera, simfoniya, yaxud poemadır". Amma...*

*Amma bu fikri dahi bəstəkarımız Üzeyir Hacıbəyovun əsərləri haqqında söyləmək qeyri-mümkündür. Çünki onun bütün əsərləri şah, qəlbəyatan, ürəkoxşayandır. Onlardan birini-"Leyli və Məcnun" əsərini diqqətinizə verməklə bunun bir daha izahına çalışacağıq.*

Bəri başdan deyək ki, opera sənəti tarixində çox az səhnə əsəri tapmaq olar ki, "Leyli və Məcnun" kimi bir dəfə də olsa səhnədən düşməsin.

"Leyli və Məcnun" operasının 97 il bundan qabaq Bakı səhnəsində tamaşaya qoyulması Azərbaycanın 1908-ci il teatr həyatında çox böyük bir hadisə oldu. Bu opera ilk tamaşasından başlayaraq misilsiz müvəffəqiyyət qazandı və geniş tamaşaçı kütləsi tərəfindən çox böyük rəğbətlə qarşılandı. "Leyli və Məcnun" 1908-ci ildə 3 dəfə göstərildi. Tamaşaya o qədər maraq vardı ki, tamaşaçıların çoxu bilet tapmayıb, məyus halda geri qayıdırdı.

Bu müvəffəqiyyət nə ilə izah oluna bilər? Necə oldu ki, bitkin musiqi təhsili görməmiş Üzeyir Hacıbəyov 22 yaşında "Leyli və Məcnun" operasını yazdı? Hələ 1897-98-ci illərdə on üç yaşında ikən Şuşada gördüyü bir musiqili səhnəcik Üzeyir bəyin xəyalından heç vaxt çıxmırdı. Görkəmli dramaturq Əbdülrəhim bəy Haqverdiyevin təşəbbüsü və məşhur xanəndə Uabbar Qaryağdı oğlunun ifasında göstərilən bu səhnəcik "Məcnun Leylinin qəbri üstündə" adlanırdı. Bu haqda Üzeyir bəy sonralar yazacaqdı: "Həmin səhnə mənə o qədər dərin təsir bağışladı və o qədər məni həyəcanlandırdı ki, bir neçə ildən sonra Bakıya köçdükdə operaya bənzər bir şey yazmaq qərarına gəldim. Bunun üçün mən xalq yaradıcılığının klassik nümunələri olan muğamlardan musiqi materialı kimi istifadə etmək qərarına gəldim. Vəzifəm ancaq Füzuli poemasının sözlərinə forma və məzmunca zəngin, rəngarəng muğamlardan musiqi seçmək, əsərdəki dramatik hadisələrin inkişafını münasib tərzdə qurmaqdan ibarət idi".

Çox keçmir ki, Üzeyir bəy bu əsərlə poeziya ilə musiqinin harmonik birliyinin təntənəsinə nail olur.

"Leyli və Məcnun" operasının müvəffəqiyyətini şərtləndirən ən əsas amillərdən biri məhz gözəl poetik mətnin klassik musiqi ilə bacarıqla uyğunlaşdırılmasından ibarətdir.

Operanın yaranma tarixi barədə Üzeyir bəy yazırdı: "Leyli və Məcnun" operasının partiturası yox idi. Bunu hadisələrin və nömrələrin ardıcıllığını göstərən "direksion" əvəz edirdi. Nota ancaq orkest musiqisi və xor üçün xalq mahnılarından götürülmüş melodiya materialı salınmışdır. Müğənnilərin oxuduqları muğam ladında mətndən kənara çıxmaqla improvizasiya ilə məşğul olmalarına tam ixtiyar verilirdi. Hər bir muğamın olduqca çox improvizasiya variantı vardır".

Üzeyir bəy bu operada hansı muğamın hansı qəzələ daha müvafiq olduğunu böyük sənətkar zövqü və həssaslığı ilə müəyyənləşdirmişdir. Bu isə əsərdə psixoloji təbiiliyin yaranması və musiqi ifadəsinin münasib intonasiyalar üzərində qurulmasını təmin etmişdir.

Beləliklə, Üzeyir Hacıbəyov bu əsərdə muğamlara bir növ obraz vermiş məhəbbəti, sevinci, kədəri ifadə edən həmin muğamları səhnədəki hərarətlə, aktyor oyunu ilə birləşdirmişdir.

aktyor oyunu ilə birləşdirmişdir. "Leyli və Məcnun" operasının yaranması zamanı bir çox çətinliklər üzə çıxır. Üzeyir bəy özü qeyd edirdi ki, o zaman nə ciddi ifaçılıq mədəniyyətimiz, nə müəyyən bir nəzəri hazırlığımız, nə də öz səhnəmiz vardı, maddi və mənəvi cəhətdən də çətinlik çəkirdik.

Bu operada Məcnun rolunun məşhur ifaçısı Sarabski isə bu çətinlikləri belə təsvir edirdi: "Yer olmadığından biz müxtəlif mənzillərə toplaşaraq məşq edirdik. Üzeyir bəy həm not yazır, librettoda dəyişikliklər edir, hər bir rolun ifaçıları ilə ayrı-ayrılıqda məşq edirdi. Tarda Qurban Pirimov solo nömrələrini müşayiət etmək üçün hazırlaşırdı. Kostyumları tapmaq çox çətin idi. Üzeiyr bəy tələbə yoldaşlarından Ə.Terequlov, A.Qasımov, F.Ağayev və başqalarından ibarət orkest təşkil etmişdir. Onun özü də orkestrdə birinci skripkaçı kimi çalırdı".

Əsas çətinlik Leyli və digər qadın rollarını oynayacaq kişilər tapılması ilə bağlıdır. Belə ki, Azərbaycanda o dövrdə qadınların səhnəyə çıxıb artistlik edə biləcəyi heç kimin ağlına gətirilə bilməyən bir iş idi. Uzun axtarışdan sonra Bakı çayxanalarının birində çayçı şagirdi olan Əbdülrəhim Fərəcov adlı bir gəncin nazik səslə oxumasını eşidən Üzeyir bəy onu Leyli roluna dəvət edir. Onu çox dilə tutmalı olurlar ki, Leyli rolunu oynasın. Ə.Fərəcov nəhayət ki, razılıq verir.

"Leyli və Məcnun" operasının müvəffəqiyyətinin digər səbəbi məhz həvəskar aktyorların öz rollarını böyük sənətkarlıqla, həvəslə, ruh yüksəkliyi ilə ifa etməleri idi.

1908-ci il 12 yanvar tamaşasının proqramında ilk rolların ifaçıları bunlar idi: Məcnun-Sarabski, Ümmülqeys (Məcnunun anası)-Kazımovski, Əbülqeys (Məcnunun atası)-Mirzə Muxtar, Leyli-Ə.Fərəcov, Fəttah (Leylinin atası)-İ.Qasımov, Ümmülleyli (Leylinin anası)-C.Vəzirov, İbni Salam-C.Dağıstanlı, Zeyd-M.Terequlov.

Azərbaycan professional musiqi tarixinin görkəmli şəxslərindən olan və indiyəcən Məcnun rolunun unudulmaz ifaçısı kimi tanınan H.Sarabski bu rolda 400 dəfədən artıq çıxış etmişdir. Leyli surətini isə bu günlərədək Ə.Ağdamski kimi yaradan olmamışdır.

Milli musiqi mədəniyyətimiz tarixində "Leyli və Məcnun"un ilk tamaşası yeni amillər üzə çıxartdı. Onlardan biri də opera truppalarının yaradılması idi. Bu operanı tamaşaya qoymağa hazırlaşarkən fəal həvəskar aktyorlar bu kollektivdə birləşdi. Onların arxasında "Leyli və Məcnun"un şöhrətini daha da genişləndirən nəsil yetişdi.

Digər amillər opera sənətimizdə xor, simfonik orkestr, dekorativ tərtibat və s. elementlərin yaradılması idi. Aktyorlar, rejissorlar, rəssamlar, orkestr rəhbərləri tamaşadan-tamaşaya öz yaradıcılıq işlərini daha da təkmilləşdirdilər.

"Leyli və Məcnun" operası yeni Azərbaycan operalarının da meydana çıxmasına şərait yaratdı.

Azərbaycan musiqisini inkişaf etdirən və sonradan özləri də tanınan, məşhurlaşan bir çox ifaçılar bu ölməz məhəbbət dastanı ilə böyük sənətə qədəm qoymuşlar.

97 il ərzində opera səhnəmizdə neçə Leylimiz, Məcnunumuz olub. "Leyli və Məcnun" hər bir xanəndə üçün sənət hünərinə, sənət məktəbinə çevrilib.

Məcnun rolunu onun ilk əfsanəvi ifaçısı Sarabski, sonra Hacıbaba Hacıbabayev, Əlövsət Sadıqov, Şirzad Hüseynov, Qulu Əsgərov, Əbülfət Əliyev, Bakir Haşımov, Arif Babayev, Baba Mirzəyev, Canəli Əkbərov, Alim Qasımov, Mənsum İbrahimov, Səbuhi İbayev, Leyli rolunu isə Kövhər Hacıyeva, Sürəyyə Qacar, Sona Hacıyeva, Yavər Kələntərli, Həqiqət Rzayeva, Sima Haşımova, Gülxar Həsənova, Rübabə Muradova, Rəsmiyyə Sadıqova, Sara Qədimova, Zeynəb Xanlarova, Nəzakət Məmmədova, Səkinə İsmayılova, Qəndab Quliyeva, Nəzakət Teymurova, Gülyaz Məmmədova ifa etmişlər.

"Leyli və Məcnun" operasının Azərbaycan xalqının ürəyində xüsusi yeri vardır və bu yer əbədidir. Hər dəfə bu operanın tamaşaçısı olanda biz Üzeyir bəy sənətinin nəhəngliyini, qüdrətini, möcüzəsini, sehrini bir daha yenidən hiss edir, yenidən qiymətləndiririk...

**İradə Xəlilova**